

***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) VIII Zirvə Görüşü dünya mediasında geniş işıqlandırıldı və beynəlxalq aləmdə diqqətlə izlənildi. Zirvə görüşündə müzakirə edilən mövzular, qəbul edilən qərarlar, türk dövlətləri başçılarının çıxışları, xüsusən Azərbaycan Prezidenti, TDƏŞ-in sədri cənab İlham Əliyevin dərin məzmunlu və proqram xarakterli çıxışı böyük maraqla qarşılandı.***

Tədbirdə diqqət çəkən məqamlardan biri Türk Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi, digəri isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türk Dünyasının Ali Ordeninə layiq görülməsi haqqında çox ədalətli bir qərarın qəbul edilməsi oldu... Bu fikirləri Milli Məclisin deputatı Səbinə Xasayeva bildirdi. Səbinə xanım əlavə olaraq dedi:

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bundan sonra artıq yeni ad altında fəaliyyət göstərəcək. Türk Dövlətləri Təşkilatının dünya üçün önəmi bundan sonra da artacaq. Təşkilatın tərkibində təbii müttəfiqlər yerləşir. Türk dövlətlərinin iş birliyi səmimidir. Xalqlarımız arasındakı birlik, qardaşlıq gündən-günə möhkəmlənir və böyük coğrafiyanı əhatə edir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşünün mahiyyətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu kəlamı ümumiləşdirir: "...Biz Türk

# Bu mükafat bütün Azərbaycan xalqına bir aləm sevinc bəxş etdi

– Bu günlərdə İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirildi. Bu, qarşılıqlı etimada əsaslanan qarşılıqlı dinamik inkişafa stimul olan görüş kimi tarixiləşdi.

Dövlət Başçıları Şurasının iclasını açan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qəlbinin hökmü ilə qardaş Azərbaycana sevgisini duyğusallıqla ifadə etdi: "...Sədrliyi təhvil aldığımız Can Azərbaycana pandemiyaya baxmayaraq, həyata keçirdiyi uğurlu fəaliyyətlər münasibətilə təbriklərimi çatdırıram. Azərbaycanda uğurlu fəaliyyət həmişə olub, başlanğıcı 2020-ci ilin 27 sentyabrı olan Vətən müharibəsi dövlətçilik baxımından son illərin ən uğurlu fəaliyyətidir".

Türkiyə Respublikası Prezidentinin bu fikirlərini Şuşada keçirilən "Xarıbülbül" festivalında dediyi fikirlərin davamı bilirik: Azərbaycan torpaqları illərdi həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır"...

Şurasının tədbiri çərçivəsində görüşürük və bu şura təşkilata çevrilir. Əlbəttə, bu zirvə görüşü bütün türk dünyası və bizim dövlətlər üçün tarixi əhəmiyyət kəsb edəcək..."

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın tədbirdə dediklərini bütün iştirakçı dövlətlərin rəhbərləri böyük könül xoşluğu ilə qəbul etdi: "Fürsətdən istifadə edərək əziz qardaşım cənab İlham Əliyevə Türk dünyasının Ali Ordenini təqdim etməkdən dərin məmnunluq duyur, azadlıq yolunda şəhid zirvəsinə ucalan qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm". Bu, hər bir azərbaycanlıya bir aləm sevinc bəxş etdi. Onları Vətən müharibəsində qazandığımız Zəfər qədər qürurlandırdı.

Azərbaycan Prezidenti isə çıxışında Ali Ordenin verilməsi ilə bağlı dedi: "...Bu, Qarabağın azad edilməsində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır".

***Mahmud QƏRİBOV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.-19 noyabr.- S.3.